# DOSTLUQ - İDMANÇI YENİYETMƏLƏRİN ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏT FORMASI KİMİ

*Sosial elmlər kafedrasının baş müəllimi*
*A.Ə. Cəbrayılova*
*arzucavadova78@gmail.com*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
©2019ADBTİA.Bütün hüquqlar qorunur.

**Annotasiya:** Məqalədə idmançı yeniyetmələrin şəxsiyyətlərarası münasibətləri, xüsusilə də dostluq münasibətlərinin yaranması və inkişafından bəhs edilmişdir. İdmanla məşğul olmağın yeniyetmə həyatında nəinki sağlamlıq baxımından əhəmiyyətli olduğu, hətta uzunmüddətli dostluq münasibətlərinin qurulması üçün zəmin olduğu vurğulanmışdır. Məqalədə qeyd edilmişdir ki, dostluğa sabit vəziyyət kimi baxılmamalıdır. Dostluq münasibətləri proses kimi nəzərdən keçirilməlidir. Hansı ki, bu da özünüaçıqlama və digərini anlama problemi ilə six əlaqədədir. Odur ki, məşqçi və valideynlər idmançı yeniyetmələrin qarşılıqlı münasibətlərini düzgün istiqamətləndirməlidirlər.

**Açar sözlər**: İdmançı, yeniyetmə, şəxsiyyətlərarası münasibət, dostluq, attraksiya

Yeniyetməlik yaş dövrü çətin, məsuliyyətli, həssas, valideynlər tərəfindən xüsusi diqqət tələb edən bir dövür kimi qiymətləndirilir. Yeniyetməlik yaş dövrü insan ömrünün elə bir mərhələsi hesab edilir ki, məhz bu yaş dövründə insan gələcəklə bağlı mühüm addımlar atır. Hansı ki, məhz bu qərarlar yeniyetmənin gələcək həyatını istiqamətləndirir.

Xüsusilə də idmançı yeniyetmələrin münasibətlər sferasına, ayrı-ayrı insanlara, insanlar arasındakı münasibətlərə, müxtəlif həyat hadisələrinə, həmçinin də özünün hərəkət və davranışına müxtəlif istiqamətlərdə təsir göstərir. Ona görə də yeniyetmənin bir şəxsiyyət kimi formalaşması cəmiyyət üçün faydalı olması, davranış və rəftarına anlayışlı münasibət göstərməsi zərurəti lap erkən yaşlardan uşaqların əxlaqi anlayışlara, normalarla, qaydalarla bağlı düzgün və aydın təsəvvürlərin formalaşmasına nail olumasını tələb edir.

İdmanla məşğul olmaqla yeniyetmələr nəinki asudə vaxtlarını dəyərləndirmiş olurlar, eyni zamanda onlar üçün fizioloji və psixoloji cəhətdən sağlam olmaları baxımından daha çox əhəmiyyətlidir. Qeyd edək ki, hər hansı bir idman oyunu zamanı uşaqlarda qaydalar, bölüşmək, münasibət qurmaq, vaxtı səmərəli keçirmək və s. kimi keyfiyyətlər formalaşır. İdman yeniyetmələrdə daha rahat dost olmaq bacarığı formlaşdırır. Saatlarla aparılan idman məşqləri zamanı tərəflər arasında biri – birinə bağlılıq onların sosiallaşması ilə nəticələnir. Bu da uzunmüddətli dostluqlarla müşaiyət olunur.

Məşqçi idmançıların qrupdaxili ünsiyyətində idarə olunmasını bacarmalıdır. Bu tələb edir ki, yarışların təhlilində və məşqlərdə idmançıların oyun ünsiyyətlərini müntəzəm surətdə şüurlu şəkildə təhlil etsin. Əgər məşqçi görürsə ki, oyun zamanı idmançılar bir-birinə qarşı laqeyidlik göstərir, müdafiə etmir, həvəsləndirmir, oyunun təhlilində buna xüsusilə ciddi diqqət yetirməlidir [3,s.36]

Müasir psixologiyada idmançı yeniyetmələr arasındakı dostluq münasibətləri müxtəlif aspektdə öyrənilir. Belə ki, yeniyetmə idmançıların dostluğuna fərdi inkişafın göstəricisi və funksiyası aspektində, qrup, kollektiv münasibətlərinin inkişafı kontekstində eləcə də təbii şəraitlərdə yeniyetmə birlikləri və cütlərinin fəaliyyətlərinin müşahidəsinə əsaslanan müqayisəli tədqiqlər axarında baxılır.

Yanaşmalardakı müxtəlifliyin nəticəsi olaraq bəzi müəlliflər üçün idmançılarda dostluq anlayışı və obrazının təkamülü,

digərlərində isə dostdan normativ gözləntilərin və ona verilən tələblərin dinamikası ön plana çəkilirsə, tədqiqatçıların bir qismi üçün yeniyetmə qruplarındakı qarşılıqlı münasibətlər sistemində dostluğun yeri və s. daha önəm kəsb edir.

Burada nəzərə alınması vacib olan daha bir mühüm məqam şəxsiyyətlərarası attraksiya nəzəriyyəsinin yeni elmi – nəzəri paradiqma ilə əvəz olunması ilə bağlıdır. Bu yeni paradiqmada dostluq münasibətlərinə şəxsi münasibətlərin xüsusi növü kimi baxılır ki, bunun da özünəməxsus xüsusiyyətləri vardır. Dostluq münasibətlərinin öyrənilməsi zamanı bu xüsusiyyətlər də nəzərə alınmalıdır. Bu xüsusiyyətlər qismində İ.S.Kon aşağıdakıları qeyd edir:

1.“Şəxsi münasibətlər” anlayışının əhatə etdiyi hadisələr dairəsi “şəxsiyyətlərarası attraksiya” fenomenlərinin müəyyən etdiklərindən xeyli məhduddur. Burada qısa müddətli təsadüfi əlaqələrdən deyil, yalnız inkişafda olan, nisbətən davamlı qarşılıqlı münasibətlərdən söhbət gedir.

2. Funksional – rol münasibətlərindən fərqli olaraq şəxsi münasibətlər fərdidir, şəxsləşmişdir, onların təşəkkülü və inkişafı gedişində hər iki iştirakşını zənginləşdirən yeni subyektiv şəxsi məna əmələ gəlir. Sadəcə informasiya və ya davranış mübadiləsi zamanı bu baş vermir.

3. Şəxsi münasibətləri zaman amilini nəzərə almaqla təbii şəraitdə, yalnız yüksələn (tanışlıq, dərinləşmə, saxlanma) deyil, həm də zəifləyən (pisləşən, azalan, münasibətlərin kəsilməsi) inkişaf mərhələlərində öyrənilməsi zəruridir.

4. Madam ki, subyekt – subyekt münasibətlərindən söhbət gedir, nəzərə almaq lazımdır ki, onların inkişafı universal normalara müvafiq olaraq avtomatik deyil, tərəfdaşların şüurlu səyi və kommunikativ strategiyalarından asılı olaraq baş verir.

5.Münasibətlərin sabit vəziyyəti və bir mərhələdən digərinə rəvan keçidi illuziyalarının arxasında dramatik dəyişikliklər, qeyri müəyyənliklər, danışıqlar, atrubusiyalar və s. prosesləri gizlənir.

6. Bu proseslərin mənası və mahiyyəti həmişə dərk olunmur, onların nəticələri isə münasibətlərin iştirakçıları tərəfindən müxtəlif şəkildə mənalandırılır. Ona görə də onların obyektiv determinə olunmasını, subyektiv motivləşməsini və retrospektiv legitimləşməsini fərqləndirmək lazımdır (şərhetmə və haqq qazandırma).

Göründüyü kimi burada şox mühüm məqamlar ön plana çəkilir. Üçuncü bəndə diqqət yetirdikdə aydın olur ki, dostluğa sabit vəziyyət kimi baxılmamalıdır. Yəni dostluq münasibətləri proses kimi nəzərdən keçirilməlidir. Hansı ki, bu da öz növbəsində başqa bir daha mürəkkəb problemlə - özünüaçıqlama və digərini anlama problemi ilə six əlaqədədir. Özünüaçıqlama isə bir çox məqamlardan asılıdır. İnsan özünü hansı şəraitdə, kimə, niyə, hansı həddə və s. açıqlayır. Qarşılıqlı özünüaçıqlamalarda insanlar nə dərəcədə obyektivdir və s. Tərəflər biri digərinə nə dərəcədə açıqdırlar? Bu sualların maraq dairəsində olması təsadüfi deyildir. Çünki, dostluq münasibətləri digər münasibətlərdən fərqli olaraq daha yaxın və daha intim münasibətlərdir. Qeyd olunan bütün bu suallara verilən cavabların obyektivlik dərəcəsindən asılı olaraq şəxsi münasibətlərin bir mərhələsindən digərinə rəvan keçidin arxasında baş verən proseslərin dramatiklik dərəcəsi də müxtəlif olacaqdır.

İdmançı yeniyetmələr arasında dostluq münasibətləri əvvəlki yaş dövrlərində olduğundan fərqli cəhətlərə və xüsusiyyətlərə malikdir. Yəni bu yaş dövründə dostluq anlayışı həm məzmun, həm də ona verilən tələblər baxımından fərqli xarakterə malik olmaqla bərabər, onun qarşılıqlı münasibətlər sistemindəki yeri və rolu da nəzərə çarpacaq dərəcədə dəyişəcəkdir.

Bu cəhətlə əlaqədar olaraq İ.V. Straxov düzgün qeyd edir ki, yeniyetməlik yaşı mərhələsində dostların şəxsiyyətini qarşılıqlı tamamlamağa və zənginləşdirməyə xidmət edəcək dostluq hissi özünün strukturu və funksiyalarına görə qarşılıqlı münasibətlərin bu formasının yeni inkişaf səviyyəsini önə

çıxarır. Yəni yeniyetməlik yaşı üçün şəxsi dostluq hissinin nəzərə şarpacaq dərəcədə inkişafı və bu yaşda dost ünsiyyətinə həqiqi tələbatın olması xarakterik cəhətlərdəndir. Məhz bunun nəticəsidir ki, yeniyetmə passiv surətdə dostun nə vaxt meydana çıxacağını gözləmir, qeyd olunan tələbatını ödəmək üçün özü fəal surətdə dost axtarışına çıxır. Bu səbəbdən də yeniyetməlik yaşında dostluq münasibətlərinin kəsilməsi onlar tərəfindən çox vaxt ürək ağrısı ilə yaşanılır.

Ümumiyyətlə yeniyetməlik yaşında dost axtarışının istiqaməti, motivi və xarakteri məktəbəqədər yaş dövrü ilə müqayisədə fərqli cəhətlərə malik olmaqla özünəməxsus xüsusiyyətlər kəsb edir. Belə ki, əgər məktəbəqədər yaşlı uşaq daha çox ona xeyirxahlıqla yanaşacaq, diqqət yetirəcək tərəf müqabil axtarırsa, yeniyetmə üçün dostluğun əsasını adətən mənəvi maraqlar və tələbatlar təşkil edir. Odur ki, məşqçi və valideynlər idmançı yeniyetmələrin qarşılıqlı münasibətlərini düzgün istiqamətləndirməlidirlər.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Çinar –Çap. Bakı: 2006, 620s.
2.Əlizadə Ə.Ə., Əzimov Q.E., Quliyev E.M. Məktəblinin psixologiyası. Bakı: “Renessans” 2015, 115s.
3.İdman və psixologiya T. İsmayılov Bakı:2016
4.İdman psixologiyası T.İsmaylov; C.Məmmədova Bakı: 2002 səh.15-20

## Дружба –как форма межличностных отношений между спортсменами

*старший преподаватель.*
*А.А.Джабраилова*
*Азербайджанская Государственная Академия Физической Културы и Спорта*

**Аннотация:** В статье рассматривается возникновение и развитие межличностных отношений между спортсменами и подростками. Подчеркивается, что спорт важен не только для здоровья подростков, но и для установления долгосрочных дружеских отношений. В статье говорится, что дружба не должна рассматриваться как стабильная ситуация. Дружеские отношения должны рассматриваться как процесс. Что также связано с проблемой самосознания и понимания друг - друга. Поэтому тренеры и родители должны правильно руководить взаимодействием между спортсменами и подростками.

**Ключевые слова**: Спортсмен, подростки, межличностные отношения, дружба, аттракция

## Friendship is as a form of interpersonal relationships among athletes

*head teacher A.A. Cabrayılova*
*Azerbaijan State Academy of Physical Culture and Sport*

**Annotation:** The article discusses the emergence and development of interpersonal relationships between athletes and adolescents. It is emphasized that sports are important not only for the health of teenagers, but also for the establishment of long-term friendships. The article states that friendship should not be viewed as a stable situation. Friendly relationships should be viewed as a process. Which is also related to the problem of self-awareness and understanding of the other. Therefore, coaches and parents must properly guide the interactions between athletes and adolescents.

**Keywords:** Athletes, teenagers, interpersonal relationships, friendships, attractions